1_Layout 1 14.06.2019 14:01 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 12 (553)

15 iyun 2019-cu il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# 15 iyun Azərbaycan xalqının Milli Qurtuluş Günüdür

**1993-cü il iyunun 15-i Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil olub və dövlətçiliyimiz yox olmaq təhlükəsindən xilas edilib. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, regionda və dünyada Azərbaycanın nüfuzu daha da artır.**



Milli qurtuluş fəlsəfəsi sözün geniş mənasında Azərbaycanın mövcudluğunu, onun ən böyük tarixi nailiyyəti olan müstəqilliyini təmin etdi. Xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi. Ulu Öndər böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Beləliklə, bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi həkk olundu və 1997-ci ildən etibarən parlamentin qərarı ilə rəsmi bayram kimi qeyd olunur.

Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Əgər müstəqilliyi qazanmaq ilkin şərt idisə, ikinci vacib məsələ onu qoruyub inkişaf etdirmək idi və bu, Ümummilli Liderin iradəsi sayəsində reallığa çevrildi. Heydər Əliyev milli dövlətçiliyimizin konsepsiyasını yaratdı. Bütün maneələrə baxmayaraq, ən qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. AXC-Müsavat hakimiyyəti isə təbii ki, Heydər Əliyevin uğurlarını qısqanclıqla qarşılayıb ona mane olmağa çalışdı. Vəziyyətdən səbirlə çıxan Prezident Heydər Əliyev televiziya vasitəsilə xalqa müraciət etdi. İyunun 20-də Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə yerli və xarici jurnalistlər üçün brifinq keçirdi. İyunun 21-də isə bir sıra ölkələrin diplomatları ilə görüşdü. Bu sahədə yürüdülən siyasət respublikanı informasiya blokadasından çıxardı. Dünyada ölkəmizlə bağlı formalaşan fikir müsbət yönümdə dəyişdi. Məhz belə bir mürəkkəb siyasi şəraitdə Heydər Əliyevin böyük potensialı Azərbaycanın müstəqilliyinin qarantına çevrildi. Ümummilli Liderin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, xarizması, qətiyyəti, uzaqgörənliyi böhrana son qoydu, xalqımız Azərbaycan və azərbaycançılıq ideyaları ətrafında birləşdi. Ümummilli Liderin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycanda vətəndaş qarşıdurmasına birdəfəlik son qoyuldu, ölkəmiz xaosdan, siyasi çəkişmələrdən, sosial-iqtisadi böhrandan xilas oldu. Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı. Respublikanın qarşısında duran problemlər mərhələlərlə həll olundu, əmin-amanlıq, siyasi sabitlik yarandı. İctimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş başlandı, xalqımızın bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edildi, Azərbaycanın dünya birliyinə inteqrasiyası başlandı.

**Ümummilli Lider Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycanda hakimiyyətə qayıdışı dövlətçilik tariximizin şanlı səhifəsini təşkil edir. Qədirbilən xalqımız böyük xilaskarının xidmətlərini unutmur və 15 iyun - Milli Qurtuluş Gününü hər il yüksək əhval-ruhiyyə ilə qeyd edir.**

**AZƏRTAC**

## DAXİLİ QOŞUNLARIN BAŞ İADRƏSİNDƏ 15 İYUN - MİLLİ QURTULUŞ GÜNÜ QEYD OLUNUB

İyunun 14-də Daxili Qoşunların Baş İdarəsində Milli Qurtuluş Günü münasibəti ilə təntənəli mərasim keçirilib. Mərasimdə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti Cahangir Cahangirli iştirak edib.



Tədbir Azərbaycan xalqının Milli Lideri Heydər Əliyevin, vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı həlak olmuş hərbi qulluqçularımızın əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb.

Qeyd olunub ki, 15 iyun 1993-cü ildə Milli Lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı dövlətçilik tariximizin şanlı səhifələrindəndir. Xalqımız artıq 26 ildir ki, bu günü Milli Qurtuluş Günü kimi qeyd edir.

Tədbirdə o da vurğulanıb ki, ölkənin məhv olmaq təhlükəsi ilə üzləşdiyi bir zamanda XX yüzilliyin görkəmli şəxsiyyətlərindən olan, dövlətimizin, müstəqilliyimizin və ordumuzun memarı, Milli Lider Heydər Əliyevin xalqın təkidi ilə respublikada hakimiyyətə qayıdışı və həyata keçirdiyi uzaqgörən, müdrik siyasəti sayəsində ölkəmiz iflasdan xilas edildi, vətəndaş müharibəsinin qarşısı alındı. Onun demokratik, hüquqi dövlət quruculuğu istiqamətində məqsədyönlü siyasəti ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratdı. Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafına təkan verir, regionda və dünyada Azərbaycanın nüfuzu günbəgün artırır.

Həyatını öz xalqına bəxş etmiş Heydər Əliyevin siyasi rəhbər və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan dövlətçiliyinin tarixində dərin izlər buraxaraq, əsl dövlət idarəçiliyi məktəbini yaratmışdır.

Sonra Milli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətlərinə həsr edilmiş videofilm nümayiş olunub.

Videofilmin nümayişindən sonra "Milli Lider Heydər Əliyev Azərbaycan xalqının xilaskarı, müstəqilliyin və dövlətçiliyin memarıdır" mövzusunda məruzə üçün söz Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti C.Cahangirliyə verilib.

Qonaq öz çıxışında bildirib ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulub. Vurğulanıb ki, 1991-ci ilin oktyabrında Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə daxili vəziyyət gərginləşmiş və hakimiyyət böhranı yaranmışdı. İctimai həyatın bütün sahələrində xaos, hərc-mərclik baş alıb gedirdi. Orduda da vəziyyət ağırlaşırdı. Azərbaycanda hakimiyyət boşluğu yaranmışdı. Gənc respublikada rəhbərliyə yiyələnmək üçün ayrı-ayrı şəxslər və qruplar arasında mübarizə son həddə çatmışdı. 1993-cü ilin yayında Azərbaycanda vətəndaş müharibəsi təhlükəsi yaranmışdı. Vətənin belə ağır günündə xalq öz görkəmli oğlunu - Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Heydər Əliyev xalqın və hakim dairələrin təkidli dəvətini qəbul edib, iyunun 9-da Bakıya gəldi, qısa zaman ərzində Azərbaycanda vətəndaş müharibəsinin qarşısını ala bildi. O, 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi.



Məruzəçi onu da söyləyib ki, bu dönüş xalqın istəyi, eləcə də tarixin zərurəti idi: "Bu qayıdış insanların qəlbinə bir inam və rahatlıq toxumu səpdi, ölkənin xilas olduğuna inamı artırdı. Beləliklə, Ulu Öndər Heydər Əliyevin Bakıya qayıdaraq Azərbaycan parlamentinin sədri seçildiyi gün - 15 iyun tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Bu təqvim Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Çünki bu gün olmasa idi, nə Azərbaycan, nə də müstəqil dövlət olmayacaqdı. Ulu Öndərin hakimiyyətə qayıdışı Azərbaycan dövlətini, müstəqilliyini, xalqımızın qürurunu özünə qaytardı".

Çıxışının sonunda dosent C.Cahangirli Milli Liderin fəal diplomatiyası nəticəsində inkişaf edən, müasir dünya dövlətlərinin sırasında öz layiqli yerini tutan Azərbaycanın bu gün Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində yeni tərəqqi yolunda inamla addımladığını bildirib.

**Bununla da 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş təntənəli mərasim başa çatıb.**

**baş leytenant**
**Xədicə Hacızadə**

2 ƏSGƏR 15 iyun 2019-cu il

# ŞANLI TARİX YAZAN HƏRBİ HİSSƏMİZ

***Yarandığı gündən etibarən zəngin xidmət yolu keçərək, böyük təcrübə toplayan, maddi-texniki tədris bazasının möhkəmləndirilməsi, döyüş təlimi və xidmət səviyyəsinin artırılması, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində nəzərəçarpacaq irəliləyişlərə nail olan hərbi hissələrimizdən biri də 67987 saylı hərbi hissədir. Bu il fəaliyyətinin 27-ci ildönümünü qeyd edən hərbi hissənin formalaşmasının əsası 1992-ci il iyun ayının 12-də Ağdam rayonunun ərazisində döyüş əməliyyatlarında iştirak edən Daxili Qoşunların şəxsi heyətinin birləşdirilməsi ilə qoyulub.***



Hərbi hissənin növbəti ildönümü ərəfəsində onun tarixi, döyüş yolu, ötən 27 il ərzində qazandığı nailiyyətlər barədə ətraflı məlumat əldə etmək məqsədilə 67987 saylı hərbi



hissədə oldum. Hərbi hissə komandiri polkovnik Xaliq Eyvazov hərbi hissənin döyüş yolu barədə danışdı. Bildirdi ki, hərbi hissənin şəxsi heyəti hələ 1992-1994-cü illərdə Ağdam, Ağdərə, Füzuli və Cəbrayıl rayonları ərazisində erməni işğalçılarına qarşı gedən döyüş əməliyyatlarında mətinliklə iştirak edib. Şəxsi heyət müharibə sınaqlarından alnıaçıq çıxaraq, şücaət nümunələri göstərib, düşmənə tutarlı zərbələr vurub və bir çox yaşayış məntəqələri, habelə yüksəkliklərin azad olunması və müdafiəsində yaxından iştirak edib.

Polkovnik X.Eyvazov 1994-cü ilin yanvar ayında Füzuli rayonu ərazisində Horadiz əməliyyatının uğurla başa çatdırılmasında hərbi hissənin şəxsi heyətinin xüsusi rolu olduğunu da fəxrlə qeyd etdi. Söhbət zamanı məlum oldu ki, ərazi bütövlüyümüz uğrunda aparılan döyüş əməliyyatları zamanı hərbi hissənin yüzlərlə hərbi qulluqçusu şəhid olub, itkin düşüb və yaralanıb. Belə ki, baş leytenant Ruber Səfərəliyev Vətən uğrunda canını fəda edərək, hərbi hissənin ilk şəhidi olub. Hərbi hissənin digər 4 nəfər hərbi qulluqçusu – baş leytenant Fəxrəddin Nəcəfov, baş leytenant Elşad Yəhyayev, baş leytenant Mətləb Quliyev və əsgər Səxavət Məhərrəmov isə ölümlərindən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüblər.

1999-cu ilin fevral ayından etibarən isə hərbi hissə yeni dislokasiya yerinə köçürülüb və bununla da hərbi hissənin tarixində yeni mərhələ başlayıb. Ötən illər ərzində hərbi hissədə böyük dəyişikliklər və yeniliklər olduğunu diqqətə çatdıran hərbi hissə komandiri aparılan yenidənqurma işləri və inkişafın Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun diqqət və qayğısı, Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun rəhbərliyi nəticəsində olduğunu söylədi: "Bu gün hərbi hissədə hərbi qulluqçuların peşəkarlıqlarının artırılması üçün təlim prosesinin təkmilləşdirilməsi, tədrisin müasir standartlara uyğun şəkildə aparılması məqsədilə müvafiq effektiv tədbirlər həyata keçirilməkdədir. Hərbi hissə müasir tələblərə cavab verən maddi-texniki təchizatı, yüksək səviyyədə xidmət və məişət şəraiti, şəxsi heyətin peşəkarlığı və zəngin təcrübəsi ilə seçilir".

Bu gün hərbi hissə ictimai qaydaların və təhlükəsizliyin keşiyində mətinliklə dayanır. Tam əminliklə söyləmək olar ki, ciddi nizam-intizamın hökm sürdüyü hərbi hissə əmin-amanlığın, asayişin sadiq keşikçisi olaraq, qarşıya qoyulan xidməti-döyüş tapşırıqlarını tam və keyfiyyətlə, yüksək səviyyədə yerinə yetirməyə qadirdir. Belə ki, kütləvi iğtişaşların qarşısının alınması, silahlı cinayətkarların zərərsizləşdirilməsi üzrə xüsusi əməliyyatlarda, beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə ictimai qayda və təhlükəsizliyin təmin olunması zamanı verilən bütün tapşırıqları qüsursuz icra etmələri də bunun bariz göstəricisidir.

Məlumdur ki, hərbi hissənin şəxsi heyəti 2015-ci ilin noyabr ayından Bakı şəhəri Nardaran qəsəbəsində hüquqi rejimin tətbiq edilməsinə cəlb olunur. Polkovnik X.Eyvazov hərbi qulluqçuların bu qəsəbədə ictimai təhlükəsizliyin qorunması üzrə xidməti vəzifələrini layiqincə yerinə yetirdiklərini sözlərinə əlavə etdi.

Bundan əlavə, bu il aprelin 26-dan 28-dək paytaxtımızda növbəti dəfə keçirilən "Formula-1 Azərbaycan Qran Pri" yarışı, həmçinin, mayın 29-da UEFA Avropa Liqasının final oyunu zamanı yarış və qeyri-yarış obyektlərinin mühafizəsi istiqamətində qarşıya qoyulmuş tapşırıqlar hərbi hissənin şəxsi heyəti tərəfindən uğurla yerinə yetirilib.

Ümumiyyətlə, bu gün hərbi hissənin döyüş hazırlığı yüksək səviyyədədir, desək, yanılmarıq. Təbii ki, yüksək döyüş hazırlığının qorunub saxlanılmasında xüsusi əhəmiyyət kəsb edən bölmələr var. Onlardan biri də xüsusi təyinatlı dəstədir.

### Hərbi hissənin "Kobra"ları tədris dövrünün yekunlarına görə birinciliyi qazanıb

İstənilən şəraitdə regionda ictimai təhlükəsizliyin qorunub saxlanılması, hüquqazidd əməllərin qarşısının alınması, silahlı cinayətkarların axtarılıb tutulması və zərərsizləşdirilməsi dəstənin şəxsi heyətinin əsas vəzifəsidir.

Davamlı olaraq həyata keçirilən təlim-məşq prosesləri zamanı hərbi hissənin "Kobra"ları qarşıya qoyulmuş bütün tapşırıqları məsuliyyətlə və müvəffəqiyyətlə yerinə yetirirlər. Bütün bunlar dəstənin şəxsi heyətinin gündəlik fəaliyyətinin düzgün təşkilinin, atəş və fiziki hazırlığının yüksək olmasının nəticəsidir.

Tədris dövrünü "əla" qiymətlərlə başa vuran dəstənin hərbi hissənin qabaqcıllarından olmasında, fərqlənməsində, əlbəttə ki, dəstə komandiri polkovnik-leytenant Füzuli İmrəliyevin fəaliyyəti danılmazdır.

O, 1982-ci il avqustun 12-də Beyləqan rayonunun Bahar qəsəbəsində dünyaya göz açıb. Orta təhsilini doğma qəsəbədə Sərdar İmrəliyev adına orta məktəbdə alıb. 1998-2003-cü illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində, 2013-2015-ci illərdə isə Türkiyə Respublikasının Quru Qoşunları Akademiyasında ali təhsil alıb. 2003-cü ildən Daxili Qoşunların sıralarında xidmət edir. 12318, 99713 saylı hərbi hissələrdə müxtəlif vəzifələrdə xidmət edib. 2015-ci ildə 67987 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin komandiri, 2019-cu ilin may ayından isə xüsusi təyinatlı dəstənin komandiridir.

Ötən illər ərzində qazandığı təcrübəsini tabeliyindəki şəxsi heyətlə bölüşən dəstə komandiri döyüş təliminin təşkili və keçirilməsi zamanı bölmələrin hərbi qulluqçularının qarşısında duran vəzifələrdən söz açdı. Bildirdi ki, təsdiq olunmuş müvafiq plana əsasən keçirilən məşğələlər dəstənin üzərinə düşən vəzifələrin və tapşırıqların əhəmiyyətinin dərk edilməsi istiqamətində təşkil olunur.



Polkovnik-leytenant F.İmrəliyev şəxsi heyətin təhkim olunmuş silaha mükəmməl yiyələnməsi, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsi, müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı döyüş və digər texnikanın bacarıqla tətbiq edilməsi, yüksək nizam-intizamın və sayıqlığın təkmilləşdirilməsi, fiziki və psixoloji gərginliyə müvəffəqiyyətlə tab gətirilməsi üçün əlindən gələni əsirgəmir. Ekstremal şəraitlərdə dayanıqlığın, mərdliyin və şücaətin nümayiş etdirilməsi, lazım olduqda fəal və qətiyyətli addımların atılması xüsusilə diqqət mərkəzində saxlanılır.



Şəxsi heyətin gündəlik fəaliyyəti Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq Direktivinin tələblərinə əsasən təşkil edilir. Əsas diqqət atəş və fiziki hazırlıqları ilə yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlədesant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Hərbi qulluqçuların dünyagörüşü, mənəvi-psixoloji keyfiyyətləri təkmilləşdirilir.





Xüsusi təyinatlı dəstənin tərkibində olan döyüş texnikasından bacarıqla və peşəkarcasına istifadə edə bilmələri üçün müxtəlif ərazi relyefində və hava şəraitində məşğələlər keçirilir. Yaşayış məntəqəsində və çoxmərtəbəli binalarda döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı müxtəlif ərazi relyefində çevik və peşəkar fəaliyyət göstərilməsi üçün alpinist qülləsindən geniş istifadə olunur. Təlimin əsas mahiyyətinin verilmiş döyüş tapşırığının müvəffəqiyyətlə yerinə yetirilməsi olduğunu deyən dəstə komandiri qeyd etdi ki, praktiki məşğələlər zamanı hərbi qulluqçulara xüsusi metod və vasitələr öyrədilir. Həmçinin, cinayətkar dəstələrin zərərsizləşdirilməsi və tərksilah edilməsi üzrə praktiki fəaliyyətə üstünlük verilir.

Təlim və məşğələlərin müvafiq plana əsasən müntəzəm olaraq keçirilməsi yalnız bir məqsədə - hərbi qulluqçuların peşə vərdişlərinin, o cümlədən, döyüş qabiliyyətinin daha da təkmilləşdirilməsinə xidmət edir.

Qürurverici haldır ki, çətinlik dərəcəsindən asılı olmayaraq, hərbi hissənin şəxsi heyəti qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə icra edir. Bundan sonra da qarşıda duran əsas vəzifə döyüş hazırlığını və yüksək nizam-intizamı qoruyub saxlamaq, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi etimadı doğruldaraq, Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü, cəmiyyətin və dövlətin mənafeyini, vətəndaşların Konstitusiya hüquqlarını və azadlıqlarını cinayətkar və digər hüquqazidd qəsdlərdən qorumağa hazır olmaqdır.

Ümidvarıq ki, hərbi hissənin şəxsi heyəti bundan sonra da hərbi xidmət borcunu vicdanla yerinə yetirəcək, vətənpərvərlik amalına sadiq qalaraq, dövlətçiliyimizin qorunması naminə öz töhfələrini əsirgəməyəcəkdir.

**P.S. Qeyd edim ki, iyun ayının 12-də Daxili Qoşunların 67987 saylı hərbi hissəsi ilə yanaşı, 25032 və 64412 saylı hərbi hissələrinin yaradılmalarının 27-ci ildönümü tamam olub. Bu münasibətlə, hər üç hərbi hissənin şəxsi heyətini təbrik edir, xidmətlərində uğurlar arzulayırıq.**

**baş leytenant**
**Xədicə Hacızadə**

# SİLAHLI QÜVVƏLƏR VETERANI VƏSİQƏLƏRİ TƏQDİM OLUNUB

**"Azərbaycan Respublikasının Silahlı Qüvvələri veteranı" adına layiq görülən ehtiyatda və sırada olan hərbi qulluqçularımıza müvafiq vəsiqələrin təntənəli şəkildə təqdim olunması ənənəsi onların fədakar xidmətinin, qoşunların formalaşmasına və inkişafına verdikləri töhfənin qiymətləndirilməsindən irəli gəlir, eləcə də şəxslərinə göstərilən hörmət və ehtiramın təzahürüdür. Son dövrdə ehtiyatda olan veteran hərbi qulluqçularımızın iştirakı ilə belə mərasimlər keçirilib və onlar tərəfindən bu, minnətdarlıq hissi ilə qarşılanıb.**

İyunun 1-də 25031 saylı hərbi hissədə ehtiyatda olan Silahlı Qüvvələr veteranlarımızın növbəti qrupuna müvafiq vəsiqələrin təqdim olunması mərasimi keçirilib. Daxili Qoşunlar Komandanının müavini-Maddi-texniki təminat İdarəsinin rəisi general-mayor Fəxrəddin Səmədov mərasimi açaraq, dəvət olunan veteranlarla belə bir görüşdən məmnunluğunu bildirib. O, Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun salamını veteranlara çatdırıb.

Qeyd olunub ki, hər bir veteran cəmiyyətimizin fəxri üzvüdür, dövlətimizin yüksək diqqət və qayğısı ilə əhatə edilib. Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müxtəlif illərdə imzaladığı aidiyyəti fərman və sərəncamlar, habelə qüvvədə olan qanunlarla veteranlar



üçün müəyyən imtiyazlar nəzərdə tutulub, onların sosial rifahının yüksəldilməsi istiqamətində gərəkli addımlar atılıb. "Azərbaycan Respublikasının Silahlı Qüvvələri veteranı" adının və medalının təsis edilməsi də bu kateqoriyadan olan veteranların şərəfləndirilməsi, habelə hüquq və mənafelərinin qorunmasına təminat verilməsi baxımından xüsusi rol oynayır.

General-mayor F.Səmədov veteranların keçdikləri xidməti yolun indiki nəslə nümunə olduğunu bildirib, bu məqsədlə onların qoşunlarla əlaqələrinin möhkəmləndirilməsinin vacibliyinə də toxunub. İstər müharibə, istərsə də Silahlı Qüvvələr veteranlarının şəxsi heyətin hərbi-vətənpərvərlik tərbiyəsində, qoşunların ictimaiyyət arasında nüfuzunun yüksəldilməsində, gənclərin hərbi xidmətə həvəsləndirilməsində təqdirəlayiq əməyini minnətdarlıqla vurğulayıb.

Mərasimə dəvət edilən veteranlara "Azərbaycan Respublikasının Silahlı Qüvvələri veteranı" vəsiqələri təqdim olunub. General-mayor F.Səmədov veteranları bu münasibətlə təbrik edərək, onlara həyatlarında uğurlar arzulayıb.

Sonra mərasimdə iştirak edən veteranların müraciətləri dinlənilib və sualları cavablandırılıb.

Daxili Qoşunların Veteranlar Şurası sədrinin müavini Telman Aslanov belə mərasimlərin təşkilinə görə veteranlar adından Daxili Qoşunların Komandanına təşəkkürünü bildirib. O, bu kimi tədbirlərin veteranlarda ruh yüksəkliyi yaratdığını, o cümlədən, qoşunların sıralarında xidmət edən hərbi qulluqçulara da dəyərli örnək olduğunu vurğulayıb.

Sonda xatirə şəkli çəkdirilib.

**Yalçın Abbasov**

3_Layout 1 14.06.2019 14:14 Page 1



idman

# İDMAN KOMANDAMIZIN HƏRBİ QULLUQÇULARI FƏXRİ KÜRSÜNÜN ZİRVƏSİNDƏ...

**Daxili Qoşunların İdman Komandasının hərbi qulluqçularının bir-birinin ardınca qazandıqları qələbələr hər birimizi sevindirir, fəxarət hissi qəlbimizə hakim kəsilir.**

Növbəti zəfər xəbəri də idman ustası, Azərbaycan milli yığma komandasının üzvü, Daxili Qoşunların İdman komandasında müddətli




həqiqi hərbi xidmətdə olan atıcı-əsgər Məsud Yusifzadədən gəldi. O, idman arenasındakı uğurlu çıxışları ilə xidmət etdiyi qurumu hər zaman layiqincə təmsil edir. Hərbi xidmətdə olduğu gündən bəri beynəlxalq turnirlərdə qazandığı nailiyyətlər bunu deməyə əsas verir. Belə ki, may ayının 7-dən 11-nə kimi Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində boks üzrə keçirilən Qubernator adlı beynəlxalq turnirdə 52 kq çəki dərəcəsində atıcı-əsgər Məsud Yusifzadə rəqiblərini peşəkarcasına məğlub edərək birinciliyi qazanıb.

Finalda Rusiya, Özbəkistan və Monqolustan təmsilçisi ilə tatami üzərinə çıxan cəngavərimiz hər üç görüşdən təmiz qələbə ilə ayrılıb. Sevindirici haldır ki, 30 ölkənin qatıldığı beynəlxalq yarışda o, 2-ci Avropa oyunlarına vəsiqəni əldə edib.

Qeyd edək ki, 2018-ci ildən Daxili Qoşunların sıralarında müddətli həqiqi hərbi xidmətdə olan əsgər M.Yusifzadə 1996-cı il təvəllüdlü, ali təhsillidir. Beş qat Azərbaycan çempionu, dünya kubokunun sahibidir. Xidmət müddəti ərzində 2018-ci ilin noyabrın 22-dən 26-dək keçirilən Respublika çempionatında 1-ci, dekabrın 14-dən 17-dək Rusiya Federasiyasında keçirilən Dünya kuboku yarışında isə 2-ci yerə sahib olub. 2019-cu ilin martın 25-dən aprelin 1-dək ölkəmizdə boks üzrə keçirilən "Böyük İpək yolu" beynəlxalq turnirində 52 kq çəki dərəcəsində vətənpərvər gənc, nümunəvi hərbi qulluqçu 1-ci pillədə qərarlaşmağı bacarıb.

***

Lakin İdman Komandasının uğurları bununla bitmir. İdman Komandasının növbəti hərbi qulluqçusu - atıcı-əsgər Sərxan Quluzadə may ayının 10-dan 12-nə kimi Ukraynanın Odessa şəhərində keçirilən Dünya kubokunda idmanın



karate növündə qarşılaşdığı bütün rəqiblərini məğlub edərək birinci yerin sahibi olub.

İdman ustası, Azərbaycan milli yığma komandasının üzvü olan hərbi qulluqçumuz 80 kq çəkidə mübarizəyə qatılmış, final mərhələsində İtaliya, Ukrayna və Gürcüstan idmançılarına asanlıqla qalib gələrək, həm şəxsi, həm də komanda adından 2 qızıl medal və Dünya kuboku əldə edib.

Məlumat üçün qeyd edək ki, müddətli həqiqi hərbi xidmətdə olan əsgər S.Quluzadə 1996-cı il təvəllüdlü, ali təhsillidir. 2018-ci ilin iyul ayından Daxili Qoşunların İdman Komandasında xidmət edir. Dünya və Avropa mükafatçısı, bir çox beynəlxalq yarışların qalibi, dəfələrlə Azərbaycan çempionu adını qazanıb. İki dəfə Dünya kubokunun sahibi olub. Xidmət müddəti ərzində 2018-ci ilin dekabr ayının 3-dən 5-nə kimi keçirilən respublika çempionatında 3-cü yerə layiq görülüb.

***

Baş leytenant İlqar Nəcəfli isə artıq "Əsgər" qəzetinin bütün oxucularına tanışdır desək, yerinə düşər. Son iki il ərzində ardıcıl olaraq idman arenasında qazandığı uğurları ilə qəzetimizin səhifələrindən düşməyən cəngavərimiz, sözün əsl mənasında, hər bir hərbi qulluqçuya və idmançıya nümunə olmağı bacarır. Həyatını idmansız təsəvvür edə bilməyən baş leytenant İ.Nəcəfli Daxili Qoşunların idman şərəfini layiqincə qoruyur və dövlətimizin bayrağını yüksəklərə qaldırmaq üçün durmadan öz üzərində çalışır. Qazandığı nailiyyətlər təbii ki, ona mütəmadi olaraq məşqlərdə həvəslə iştirakı, alın təri hesabına başa gəlir.

O, hazırda Daxili Qoşunların İdman komandasında məşqçi-müəllim vəzifəsindədir. Əldə etdiyi qələbələrin sayı-hesabı bilinməyən idmançımız növbəti dəfə də fəxri kürsünün lideri olaraq adını tarixə yazdırmağı bacardı. 30 may - 3 iyun tarixlərində Ukraynanın Odessa şəhərində qarışıq döyüş növləri üzrə keçirilən Dünya kuboku uğrunda mübarizədə baş leytenant İ.Nəcəfli 1-ci yerə sahib oldu.

Məlumat üçün bildirək ki, Dünya kuboku uğrunda mübarizədə 32 ölkədən 600 nəfər idmançı öz gücünü sınayıb. 85 kq çəki dərəcəsində tatami üzərinə çıxan hərbi qulluqçumuz Bolqarıstan, Gürcüstan və Ukraynalı rəqiblərinin kürəyini yerə vurub. Keçirdiyi hər üç görüşdən təmiz qələbə ilə ayrılması onun bu sahədə nə dərəcədə təcrübəli olmasını bir daha sübut edir.




Ölkəmizin himnini və bayrağını dünyada tanıdan, Daxili Qoşunların idman şərəfini layiqli şəkildə qoruyan idmançımız ona yaradılan bu şəraitə görə ilk növbədə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədova dərin minnətdarlığını bildirir, bu sahədə daim əzmkarlıq göstərərək bundan sonra da dünya ölkələrində uğurlu çıxışları ilə qoşunları layiqincə təmsil edəcəyinə söz verir.

**Biz də öz növbəmizdə, idmançı hərbi qulluqçularımızı səmimi qəlbdən təbrik edir, bundan sonra da beynəlxalq arenalarda Daxili Qoşunları layiqincə təmsil edərək bayrağımızı zirvələrdə dalğalandırmaqlarını arzu edirik.**

**baş leytenant**
**Nigar Ağayeva**

NÜMUNƏVİ XİDMƏT

# Vətənini canından çox sevir, onu qorumağı ən ümdə vəzifəsi hesab edir

**Hərbi xidmət zamanı nizam-intizam böyük önəm kəsb edir. Belə ki, intizamlı hərbi qulluqçular məsuliyyətini dərk edir, komandirlər tərəfindən verilən xidməti tapşırıqları dəqiq və vaxtında yerinə yetirirlər. Təbii ki, bunun qarşılığında hər zaman komandanlıq tərəfindən müsbət qiymətləndirilir, xüsusi diqqət və qayğı ilə əhatə olunurlar.**



Xidməti-vəzifə borclarının icrasına vicdanla yanaşan əsgər İsmayıl Abdullayev də dəfələrlə təltif olunub. O, 2000-ci mart ayının 16-da Lənkəran rayonunun Boladi kəndində anadan olub. 2006-2017-ci illərdə Boladi kənd 1 saylı orta məktəbində təhsil alıb. 2018-ci il aprelin 13-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Lənkəran Rayon Şöbəsi tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. Hazırda 16076 saylı hərbi hissənin mühafizə bölüyündə xidmət edir. Bölüyün vəzifələrinə uyğun olaraq mühüm obyektlərin mühafizəsi üzrə xidmətdə ayıq-sayıqlığı ilə fərqlənir. Qarovulda olarkən növbənin fəalı təyin olunur.

Daxili Qoşunların 1-ci dərəcəli "Əlaçı" və "İdmançı əsgər" döş nişanları ilə mükafatlandırılıb. İdmanın ağırlıqqaldırma növünə marağı olan İsmayıl uzun müddət bu idmanla həvəskar şəkildə məşğul olub.

Əsgərimiz məşğələlərdə və praktiki təlimlərdə fəal iştirak edir. O, nizam-intizamlı, güclü, vicdanlı, vətənpərvər və əqidəli Azərbaycan oğludur. Əsgər yoldaşlarına əsl nümunədir.

Onun hər cümləsindən Vətənə olan məhəbbətini sezmək olur. İsmayıla "Qarabağ dedikdə, gözlərinin önündə nə canlanır" sualını verdikdə aldığımız cavab həqiqətən də Azərbaycan əsgərinə layiq idi. O belə cavab verdi: **"Qarabağ dedikdə erməni vandalları tərəfindən yandırılmış, viran qoyulmuş yurdlarımız, yerlə-yeksan edilmiş kəndlərimiz gözlərimin önünə gəlir, öldürülmüş körpələrin iniltisi, qadınların ah-naləsi sanki qulaqlarımı deşir, düşmənə qarşı içimdə bir intiqam atəşi alovlanır".**

Həqiqətən də Vətən bizə anamız qədər əzizdir. Onu gös bəbəyi kimi qorumaq, hər qarışı uğrunda canından keçmək, son damla qanınadək vuruşmaq hər birimizin müqəddəs borcudur. Hər bir hərbi qulluqçu Vətənin müdafiəsinə, işğaldakı torpaqlarımızı azad etməyə daim hazır olmalı, doğma Qarabağımıza qovuşmaq üçün can atmalıdır. Bu baxımdan, Daxili Qoşunların keçdiyi şərəfli döyüş yolu, şəhidlərimizin qəhrəmanlıq nümunələri bütün hərbi qulluqçularımız üçün layiqli örnəkdir.

Vətənimizi belə vətənpərvər ruhlu hərbi qulluqçular qoruduqca zəfər hər zaman bizimlədir.

**gizir Ariz Aslanov**

# ŞƏRƏFLİ MÜKAFAT - "XİDMƏTDƏ FƏRQLƏNDİYİNƏ GÖRƏ" DÖŞ NİŞANI

Hərbi xidmətdə şəxsi heyətin mükafatlandırılması böyük tərbiyəvi əhəmiyyətə malikdir. Belə ki, bu amil hərbi qulluqçuların nümunəvi xidmətə həvəsləndirilməsi, əzmkarlığa və fədakarlığa ruhlandırılması, hərbi kollektivdə nizam-intizamın möhkəmləndirilməsi baxımından vacib rol oynayır. Qeyd etmək lazımdır ki, hər bir mükafat növündən və dərəcəsindən asılı olmayaraq, hərbi qulluqçunun xidməti vəzifələrinin icrasında və döyüş hazırlığının yüksəldilməsi üzrə təlimlərdə qazandığı təqdirəlayiq uğurların bəhrəsidir. Xidməti fəaliyyətdən irəli gələn təcrübə göstərir ki, hərbi qulluqçuya layiq olduğu həvəsləndirmə və təşviqlərin tətbiq edilməsi onun mənəvi-psixoloji hazırlığının müsbət yönümdə formalaşmasına öz ciddi təsirini göstərir.

Mövcud statusu və yerinə yetirdikləri vəzifələrə uyğun olaraq, habelə, özünəməxsus ənənələrin təcəssümü kimi, ayrı-ayrı qoşun növləri və hərbi qurumların fərqli mükafat növlərinin təsis edilməsi də bir gerçəklikdir.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının formalaşma və inkişaf yolu keçdiyi ötən dövrdə tərbiyə işi fəaliyyətinin mühüm tərkib hissəsi olan mükafatlandırma sistemi də təkmilləşdirilib. Artıq uzun illərdir ki, Daxili Qoşunların özünə aid mükafat növləri mövcuddur. Bunların arasında "Xidmətdə fərqləndiyinə görə" döş nişanı xüsusi yer tutur. Daxili İşlər Nazirinin 2001-ci il 25 may tarixli müvafiq əmri ilə təsis olunan "Xidmətdə fərqləndiyinə görə" döş nişanı qoşunların bütün kateqoriyalardan olan hərbi qulluqçularının mükafatlandırılması üçün nəzərdə tutulub. Həmçinin, xid-




məti-döyüş tapşırıqlarının yerinə yetirilməsində Daxili Qoşunlara köməklik göstərmiş daxili işlər orqanlarının əməkdaşları da bu döş nişanı ilə təltif oluna bilərlər.

Döş nişanının əsasnaməsində yazılıb ki, kütləvi tədbirlər keçirilərkən ictimai təhlükəsizliyin təmin olunmasında şücaət və qətiyyət göstərmiş, döyüş və ictimai-siyasi hazırlığında, hərbi borcunun yerinə yetirilməsində yüksək göstəricilər əldə etmiş qoşunların hərbi qulluqçuları bu nişanla mükafatlandırılırlar. Təltif edilən hərbi qulluqçular döyüş xidmətində, təlimdə və intizamda şəxsi heyətə nümunə olmalıdırlar.

Bu mükafatın Daxili Qoşunların Komandanı tərəfindən verilməsi təltifə layiq görülən hərbi qulluqçular üçün yüksək etimad deməkdir. Döş nişanı ilə təltif olunan hərbi qulluqçunun adı Fəxri kitaba da qeyd edilir. Ona görə də bu şərəfli mükafatın təqdim olunduğu hərbi qulluqçular yüksək məsuliyyət nümayiş etdirməlidirlər. Unutmaq olmaz ki, qanun pozuntularına yol verən, vəzifə borclarına məsuliyyətsiz yanaşan, eləcə də məişətdə qeyri-düzgün davranan hərbi qulluqçular bu nişandan məhrum edilə bilərlər.

"Xidmətdə fərqləndiyinə görə" döş nişanı ilə döyüş xidmətində həlak olmuş hərbi qulluqçuların ölümündən sonra təltif edilməsi və bu mükafatın onların ailə üzvlərinə verilməsi qoşunların qəhrəmanlıq ənənələrinin qorunub saxlanılması və təbliği baxımından çox əhəmiyyətlidir.

Xüsusi qeyd etmək lazımdır ki, "Xidmətdə fərqləndiyinə görə" döş nişanının elementləri dövlətçilik rəmzlərimizi, hərbi ənənələrimizi, təsis olunduğu qoşunların ictimai təhlükəsizliyin keşiyində dayandığını əks etdirir.

Hərbi qulluqçularımız "Xidmətdə fərqləndiyinə görə" döş nişanını qürurla daşıyırlar. Çünki bu döş nişanı mahiyyət etibarilə Daxili Qoşunları simvolizə edir. Onun üzərində həkk edilmiş "Xidmətdə fərqləndiyinə görə" sözləri isə hərbi qulluqçunun hərbi xidmət borcuna münasibət meyarının təzahürüdür.

Daxili Qoşunların sıralarında fədakarcasına hərbi xidmət keçərək ehtiyata buraxılmış veteranlarımız da "Xidmətdə fərqləndiyinə görə" döş nişanını iftixar hissi ilə qoruyub saxlayırlar.

"Xidmətdə fərqləndiyinə görə" döş nişanı sinənin sağ tərəfində, orden və medallar olduğu halda onlardan aşağıda, təhsil nişanına nisbətən sağda, Daxili İşlər Nazirliyinin "Əla xidmətlərinə görə" döş nişanından sonra taxılır.

**Yalçın Abbasov**

# Vətənpərvərlik vətəndaş cəmiyyətinin əsasıdır

Vətənpərvərlik hər bir insanın öz xalqı və Vətəni uğrunda canını belə əsirgəmədən edə biləcəyi fədakarlığın, hətta qəhrəmanlığın əsas şərtlərindən biridir. Şəxsi heyətin babaların ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına daima məsuliyyətlə yanaşılmalı, vətənpərvərlik hissinin insanda mübarizlik, fədakarlıq, qəhrəmanlıq, məğlubedilməzlik kimi keyfiyyətlərin formalaşmasındakı əhəmiyyəti yüksək qiymətləndirilməlidir. Öz Vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gəncliyin yetişməsində Cavanşir, Babək, Şah İsmayıl Xətai, Əliağa Şıxlinski, Həzi Aslanov, Mehdi Hüseynzadə kimi tarixi şəxsiyyətlərin qəhrəmanlıq nümunələrindən təbliğat vasitəsi kimi bəhrələnməklə bərabər, erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşındakı dövrümüzün qəhrəmanlarının da ibrətamiz həyatlarından, şəxsi nümunələrindən hərbi-vətənpərvərlik tərbiyəsi işində geniş istifadə edilməlidir. Xüsusilə nankor qonşunun havadarları hesabına Azərbaycan torpaqlarının bir hissəsini işğal etməsi şəraitində xalqımız mətinliyini, mübarizliyini, sayıqlığını bir an da olsa azaltmamalı, əksinə, vətənpərvərlik hissinin daha da güclənməsi istiqamətində ardıcıl, daimi, sistemli, kompleks əməli tədbirlər görülməlidir. Qeyd etmək lazımdır ki, torpaqlarımızın davam edən işğalı xalqımızın mübarizə əzmini qıra bilməmiş, Ənvər Arazov, Ruslan Muradov, Mübariz İbrahimov, Çingiz Qurbanov, Sadiq İmanov və onlarla digər qəhrəmanlarımız kimi Vətən övladlarının qəhrəmanlıqları döyüş tariximizin yeni şanlı səhifələrini yaratmaqla Azərbaycan xalqının öz tarixi torpaqlarının işğalı ilə barışmazlığının simvoluna çevrilmişlər.

Ümummilli Lider Heydər Əliyev vətənpərvərlik hissinin təbliğinə yüksək qiymət verərək, bu sahədə qarşıda duran vəzifələr barədə belə demişdir: "Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hislərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir".

Vətənpərvərlik tərbiyəsi eyni zamanda vətəndaşın həyata hazırlanmasının ən mühüm halqasıdır. İnsanların həyata hazırlanması isə bəşəri və əbədi prosesdir. Çünki o, insanlara, insan cəmiyyətinə, onun mövcudluğuna aid olan bir prosesdir.



Bu baxımdan vətənpərvərlik tərbiyəsi işinin məqsədi yalnız hərbi qulluqçuların əsgəri borcu layiqincə yerinə yetirməsi deyil, eyni zamanda onların hərbi xidmətdən sonra vətəndaş cəmiyyətinin layiqli üzvü olaraq yetişməsi kimi çox mühüm bir funksiyanı da yerinə yetirir. Bu isə, öz növbəsində, "ordu-xalq, xalq-ordu" birliyini təcəssüm etməklə, daha sağlam cəmiyyətin formalaşmasına xidmət edir.

Zabit heyəti bu mühüm mövzu üzrə tədbirlərə hazırlaşarkən, vətəndaşın vətənpərvərlik tərbiyəsi anlayışının tədqiqi, təhlili, izahı və tətbiqi üsullarının öyrənilməsini əsas məqsəd kimi qarşıya qoymalı və aşağıdakı istiqamətlərdə təhlillər aparmalıdır:

- vətənpərvərlik tərbiyəsinin həyata keçirilməsi üçün mövcud səciyyəvi xüsusiyyətləri, onun aktuallığını araşdırmaq;
- vətənpərvərlik tərbiyəsi üzrə hüquqi bazanın, mövcud dövlət proqramlarının, Daxili Qoşunlar Komandanının direktiv və göstərişlərinin tətbiqi üzrə tövsiyələrə nəzər salmaq;
- vətənpərvərlik tərbiyəsinin mahiyyətini izah etmək, vətənpərvərlik və onun tərkib hissəsi kimi hərbi-vətənpərvərlik tərbiyəsi anlayışlarının məzmununu öyrənmək, onun məqsədini, vəzifələrini müəyyən etmək;

**(davamı gələn sayımızda)**

**Səfxan Bayramov**
**Daxili Qoşunların Veteranlar Şurasının üzvü**

NÜMUNƏVİ XİDMƏT

# Şair ruhlu hərbi qulluqçumuz

25033 saylı hərbi hissənin nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçularından biri də əsgər Kərəmov Kənan Azərbaycan oğludur.

O, 1991-ci ildə Tərtər rayonunun Düyərli kəndində anadan olub. 2007-ci ildə Arzuman Ağayev adına Sarcalı kənd orta məktəbini bitirib. Orta təhsillidir. 2010-cu ildə Daxili Qoşunların 67987 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətini başa vurub.

Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra bir müddət hörgü ustası işləyib. Vətənə olan sevgisi, hərbi xidmətə marağı onun Daxili Qoşunların sıralarına qayıtmasına səbəb olub. Beləliklə, Kənan 2014-cü ildə 25033 saylı hərbi hissədə radiotelefonçu vəzifəsinə təyin edilərək, müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Hazırda xüsusi vasitələrin tətbiqi dəstəsində atıcı vəzifəsində xidmət edir. NBM növbətçisinin köməkçisi və patrul nəfəri kimi xidmətlərə cəlb olunur. Funksional vəzifələrinin məsuliyyətini dərk edir və xidmətdə hər zaman ayıq-sayıqdır.

Yüksək döyüş hazırlığı və nizam-intizamı ilə seçilir. Vəzifə borclarını layiqincə yerinə yetirir. Xidmətində nöqsanlara yol verməməyə çalışan əsgər


K.Kərəmov patrul nəfəri kimi gecə növbəsində hərbi hissənin ərazisinin mühafizəsi kimi tapşırıqların dəqiq icrasını təmin edir. Hərbi qulluqçumuz 2018-ci ilin yekun yoxlamasından "əla" qiymət alıb. Bu cəhətlərinə və hərbi hissədə keçirilən tədbirlərdə fəal iştirakına görə hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur və dəfələrlə mükafatlandırılıb.

O, hərbi hissənin özfəaliyyət kollektivinin üzvüdür. Hərbi qulluqçumuzun şairlik istedadı var. O, bu istedadı sayəsində maraqlı şeirlər yazır. Qələmə aldığı şeirlərdə ali zirvəyə ucalmış şəhidlərimizi də yad edir:

**Siz vətənin dar günündə**
**Xalqımıza dayaq oldız.**
**Qaranlıqda işıq saçıb**
**Zülmətlərdə çıraq olduz.**

Vətənə sədaqəti uca tutan Kənan "döyüşmək, şəhidlərimizin qanını almaq, işğaldakı torpaqlarımızı azad etmək üçün cənab Ali Baş Komandanın əmrini gözləyirik" deyir.

**gizir Ariz Aslanov**

## Həkim məsləhəti

# SÜRÜNƏNLƏR VƏ HƏŞƏRAT DİŞLƏMƏLƏRİ ZAMANI İLK TİBBİ YARDIM

***Mətbuat və televiziyadan verilən məlumatlara əsasən, mövsümlə əlaqədar olaraq mülki əhali arasında sürünənlər və həşərat dişləmələrinin sayı artıb. Belə hallarda hərbi qulluqçular arasında baş verməsinin qarşısının alınması üçün aşağıdakıları bilmək və yerinə yetirmək vacibdir.***

### İlan dişləməsi

İlan sancan nahiyədə kiçik yara əmələ gəlməklə orada ağrı, şişkinlik, qızartı, suluqlar yaranır. Xəsarət alanda narahatlıq, həm də üşütmə baş verir, bəzən bayılma da olur, ayıldıqdan sonra isə baş ağrısı, başgicəllənmə hiss olunmaqla mədə bulanması, qusma, susuzluq, udmanın pozulması, islah, təngənəfəslik və başqa hallar da ola bilər. Əgər kimisə ilan dişləyibsə, ilk əvvəl ilanın zəhərli və ya zəhərsiz olmasını müəyyənləşdirin.



5) Şəxsi xərəkdə ən yaxın xəstəxanaya aparın. Mümkünsə, ilanı da aparın (əgər öldürülübsə). Çünki müxtəlif növ ilan zəhərlərinə qarşı ayrı-ayrı antitoksinlər tətbiq olunur. Əgər antitoksin inyeksiya etmək lazım gələrsə, antitoksin hazır olanadək sarğını açmayın və bu zaman allergik şok əleyhinə bütün tədbirləri görün. Antitoksin yoxdursa, sarğını açın.

6) Ağrıya qarşı parasetamol (asetaminofen) verin. Tetanus əleyhinə zərdab vurdurun. Dişlək yeri yoluxubsa, çirklənibsə, antibiotik, ən yaxşı pensilin vurdurun.




**Zəhərsiz ilan:**

- Zəhərsiz ilanın iki sıra şəklində nöqtəvari diş izləri qalır. Köpək dişinin izi olmur.

**Zəhərli ilan:**

- Ən zəhərli ilanın dişləməsi nəticəsində köpək dişinin və digər dişlərin kiçik nöqtə şəklində izləri qalır.

**Zəhərli ilan dişləyən zaman görülən tədbirlər:**

1) Sakit durun. Dişlənmiş hissəni tərpətməyin. Tərpətdikcə zəhər daha çox sürətlə yayılacaq. Əgər dişlənilən yer ayaqdadırsa, yerimək olmaz. Tibbi yardım çağırın.

2) Zəhərin yayılmasının qarşısını almaq üçün dişlənmiş hissəni enli elastik bint, yaxud təmiz parça ilə sarıyın. Nəzarət edin ki, sarğıdan sonra ətrafda nəbz itməsin.

3) Ayaq və ya əldən başlayıb yuxarıyadək bütün ətrafı sarıyın. Nəbzin olmasına əmin olun.

4) Sonra ətrafı tam hərəkətsizləşdirmək üçün şina qoyun.

7) Ağrını azaltmaq, həmçinin, zəhərlənməni zəiflətmək üçün buz kömək edir. Ayağı, yaxud qolu plastik örtük və qalın parça ilə sarıyın və ətrafına əzilmiş buz parçaları düzün.

Xəbərdarlıq: Çox soyuq dəri və əzələni zədələyir, ətraf ağrımağa başlayır. Beləliklə, siz şəxsdən soruşmaqla buzu bir neçə dəqiqəliyə götürə bilərsiniz. Yara yerindən zəhəri çıxarmaq məqsədilə yardım edən şəxsin yaranı ağzı ilə sorması qəti olmaz, çünki zəhər yardım edənin qanına sorula-raq onu zəhərləyə bilər.

### Əqrəb dişləməsi

Bəzi əqrəblər digərlərinə nisbətən daha çox zəhərli olurlar. Yaşlılar üçün əqrəblər çox təhlükəli deyil. Bu zaman aspirin qəbul edin və ağrını azaltmaq üçün dişlənən nahiyəyə buz qoyun.

5 yaşından kiçik olan uşaqlar üçün əqrəb dişləməsi, xüsusən, dişlənən yer başda və ya bədəndə olduqda çox təhlükəlidir. Bəzi ölkələrdə əqrəb zəhərinə qarşı antitoksin var (Latın Amerikasında bu, antialarkan adlanır). Yaxşı təsir üçün uşağa əqrəb dişlədikdən sonrakı iki saat ərzində inyeksiya edilməlidir. Ağrıya qarşı parasetamol və ya aspirin verin. Uşağın nəfəsi daralırsa, ona ağızdan-ağıza tənəffüs verin. Əgər uşaq çox kiçikdirsə və ya əqrəb onun bədəninin əsas hissəsini dişləyibsə, yaxud əqrəb öldürücü növdəndirsə, təcili olaraq tibbi yardım çağırın.



**Davranış qaydaları:**

Yardım göstərilən zaman xəsarət alanla davranış qaydasını bacarmaq vacib şərtlərdəndir. İlk əvvəl, xəsarət alan şəxsin əynindən paltarını çıxartmağı bacarmaq lazımdır. Əgər yuxarı ətrafları biri zədələnibsə, paltar birinci sağlam qoldan çıxarılmalıdır. Sonra zədələnmiş qolu aşağıdan tutaraq paltar çıxarılır. Eyni qaydada aşağı ətraflardan şalvar çıxarılır. Əgər xəsarət alanın əynindən paltarı çıxartmaq mümkün deyilsə, onda onu tikiş yerindən sökmək lazımdır. Paltarı çıxartmaq üçün iki nəfər iştirak etsə, daha yaxşı olar. Heç bir halda paltarı dartmaq və qopartmaq olmaz. Yuxarıda göstərilən ilk yardım kompleksi zamanı soyuqqanlı davranmaq və xəsarət alana təskinlik vermək lazımdır. Xəsarət alanla davranış qaydası ilk yardım kompleksində çox böyük amildir.

**Həyat əlamətləri:**

İlk yardım kompleksinin həyata keçirilməsində ən vacibi həyat əlamətlərinin təyinini bilməkdir. Döş qəfəsinin sol tərəfində aşağı ön hissədə ürək döyünməsinin eşidilməsi və əl ilə ürək döyünmələrinin təyini xəsarət alanın sağ olduğunu bildirən tipik əlamətdir.

Nəbz ən böyük yuxu arteriyası keçən yerdən – boyun hissəsindən və yaxud dirsəklə pəncə arasındakı hissədən yoxlanılır.

Nəfəsalma - döş qəfəsinin hərəkəti, buruna yaxınlaşdırılmış güzgünün nəmlənməsi və yaxud burun deşiklərinə yaxınlaşdırılmış pambıq lifinin hərəkəti ilə müəyyən edilir.

Cib fanarı ilə gözlərə qəfildən işıq verilən zaman bəbəklərin hərəkəti müşahidə olunur. Xəsarət alanın açıq gözünü əl ilə örtüb, sonra tez kənarlaşdırıdqda, həmçinin, eyni reaksiyanı müşahidə etmək olar. Təkcə huş itirmə zamanı işığa reaksiya olmur.

Həyat əlamətləri bir daha dəqiq sübut-dur ki, təxirə salınmadan göstərilən ilk yardım müvəffəqiyyət gətirə bilər.

**DQBİ-nin Tibb xidmətində Sanitar-epidemiologiya dəstəsi**

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ DAXİLİ QOŞUNLARININ BAŞ İDARƏSİ KÖNÜLLÜLÜK ƏSASINDA QOŞUNLARIN GİZİR VƏ MÜDDƏTDƏN ARTIQ HƏQİQİ HƏRBİ XİDMƏT HƏRBİ QULLUQÇUSU VƏZİFƏLƏRİNDƏ HƏRBİ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR



**Müsabiqədə ən azı ümumi orta təhsilli, yaşı 25-dən yuxarı olmayan, boyu 175 santimetrdən hündür, idman cüssəli, müddətli həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.**

Həmin vəzifələrdə xidmətin xüsusiyyətləri aşağıdakılardır:

– xidmətə qəbul olunarkən əvvəlcə 3 illik müqavilə bağlanılır, xidmət müddəti başa çatdıqdan sonra müqavilənin müddəti dayandırıla və ya uzadıla bilər;

– yaşadıqları şəhər və rayonlardan 100-150 km aralı xidmət edirlər (Bakı və Sumqayıt şəhərləri istisna olmaqla);

– vəzifəsindən asılı olaraq 850 manat və daha yüksək əməkhaqqı alırlar;

– subay hərbi qulluqçular yataqxana ilə təmin edilir, kirayədə yaşayan ailələrə isə kirayə haqqı ödənilir.

**Hərbi xidmətə qəbul olunmaq istəyənlər hər gün (istirahət və bayram günləri istisna olmaqla) saat 09:00-dan 18:00-dək Bakı şəhərində qeydiyyatda olanlar Bakı şəhəri, Binəqədi rayonu, Q.Musabəyov küçəsi 4 ünvanında yerləşən Daxili Qoşunların Baş İdarəsinə, digər şəhər və rayonlarda qeydiyyatda olanlar isə Daxili Qoşunların yaxın regionlarında yerləşən hərbi hissələrinin komandirlərinə müraciət edə bilərlər.**

**Məlumat üçün əlaqə telefonları: (012)-590-65-07, (012)-560-27-00.**

# HƏRBİ XƏBƏRLƏR

-YENİLİKLƏR -

## İran yeni havadan müdafiə sisteminin təqdimatını keçirib

"Trend"in məlumatına görə, "15 xordad" adlı havadan müdafiə sisteminin təqdimat mərasimində çıxış edən İranın müdafiə və silahlı qüvvələrə dəstək naziri, briqada generalı Əmir Hatəmi bildirib ki, yeni sistem İran ordusunun havadan müdafiə qüvvələrinə təhvil verilib.



Havadan müdafiə sisteminin özəlliklərinə toxunan iranlı nazir deyib ki, "15 xordad" havadan müdafiə sistemi eyni vaxtda 6 hədəfi izləyərək vura bilər.

Hatəmi əlavə edib ki, bu sistem 150 m yüksəklikdən 27 km yüksəkliyə və 7 km radiusdan 75 km radiusadək yüksəkliklərdə hədəfləri vura bilər.

## ABŞ ordusu daha sürətli silahlar üzərində işləyir

ABŞ ordusu yeni açılmış laboratoriyasında daha sürətli silahların ərsəyə gətirilməsi istiqamətində işlər həyata keçirir.

Ordu.az xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə yeni açılmış Hərbi Tədqiqat Laboratoriyasının rəhbəri Melissa Flaq bildirib.

O qeyd edib ki, bu laboratoriyada toplanmış alimlər hazırda yeni nəsil daha



sürətli döyüş vasitələrinin, uzaqmənzilli həssas atış sistemlərinin üzərində işləyir, hava və raketdən müdafiə sistemləri və əsgərlərin döyüş meydanında effektivliyinin artırılma üsullarını nəzərdən keçirirlər.

## "Business Insider": F-22-lər Su-35-lərdən daha zəifdir

Amerikanın beşinci nəsil qırıcısı olan F-22 bütün əsas göstəricilər üzrə Su-35-ə məğlub olub. Ordu.az xəbər verir ki, bu barədə "Business Insider" nəşri məlumat yayıb.



Ekspertlərin fikrincə, Amerika qırıcısının əsas çatışmazlığı daha kiçik silah arsenalına malik olmasıdır. Həmçinin, belə hücumunun başlayacağı halda, Su-35 dərhal F-22-ni aşkarlaya bilər və belə olan təqdirdə 5-ci nəsil Amerika təyyarəsi asanlıqla qurtula bilməyəcək.


TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000